# MÜXƏMMƏS

## Nəbati Əbülqasım

http://www.kitablar.com
http://www.kitablar.org/

Yek kolahi-nəmədü xerqeyi-pəşmi-doməni,
Pişe mən beh zi dosəd gövhəri-dürri-Ədəni.
Lifi-xurma kəmərü rəxtü qəba yek kəfəni,
Nola aləm görə bu vəzdə bir kərrə məni,
Bir dua eylə, səni saxlasın allah qəni.

Ali et hümmətini, seyr elə bu dünyani,
Nə gözəldir deyələr xəlq sənə seyrani,
Kimdi bu çərxi-kühən sən olasan dərbani?
Bibina olduğu məlum, hanı bünyani?
Ol mücərrəd ki, məgər qurtarasan bu bədəni.

Artmamış qalü məqalın, çək özün bir yanə,
Xeyri yoxdur bu cahanın, geri dur mərdanə,
Cami-təcridi götür, başına çək məstanə,
İntəha kim, deyələr Seyyid olub divanə,
Nədi fikrin, məgər etmiş biri məhkum səni?

Bülbülə vurmuş əgər gül neçə Zəxmi-kari,
Kim görübdür ki, edə qeyr gülə izhari?
Bəsdi, xamuş otur, ver özünə  dildari,
Görücək hər kimi faş etmə ona əsrari,

Özünə məhrəm elə sərvü güli-yasəməni.

Çün bahar oldu, çəmən tapdı həyati-tazə,
Nə tağafüldü, dur, ey bülbüli-biəndazə!
Bal açıb tərfi-gülüstanə, götür əndazə,
Gör Nəbati necə şur ilə gəlib avazə,
Məhv edib vəcdü sima ilə tamam əncüməni.